# Azərbaycan rəsmi Tehrandan törətdiyi terrora görə cavab gözləyir

# Fars-molla rejimi idarəçilikdə qan tökmək "təcrübəsi"ndən istifadə edir

Dünyanın gözü İrandadır. Ötən ilin sentyabrında iyirmi iki yaşlı qızın polis zorakılığına məruz qalaraq həyatını itirməsindən sonra bu ölkədə başlayan etiraz aksiyaları səngiməyib. Getdikcə daha da kütləviləşib və artıq bütün ölkəni bürüyüb. İlk günlər etirazçılar qadınlara azadlıq, günahkarların cəzalandılmasını, diktatorun istefasını tələb edirdilər. Artıq İran İslam Respublikasının Tehran, Kərəc, Ərdəbil, Zahidan, Bəndər Abbas, Hörmüzgan və digər vilayətlərində keçirilən kütləvi aksiyaların iştirakçıları siyasi tələblər irəli sürürlər. Etirazçılar indi yalnız hakimiyyətdə təmsil olunan ayrı-ayrı şəxslərin deyil, bütövlükdə İranın siyasi quruluşunun dəyişməsini tələb edirlər.



İran hər zaman öz vətəndaşlarının haqlı tələblərinin qarşısını qan tökməklə alıb. İnsanların gözünü qorxutmaq üçün hər cür fitnəyə, iftiraya, yalana, şərə, böhtana qəddarlıqla əl atıb. Ötən ilin sentyabrında başlayan etiraz aksiyalarına son qoymaq üçün də İran öz "təcrübəsi"ndən istifadə etdi. Ölkənin ayrı-ayrı yerlərində aksiya iştirakçılarını qorxutmaq məqsədilə cinayətlər törətməkdən belə çəkinmədi. Nəticədə dövlət səviyyəsində həyata keçirilən qanunsuzluqlara, haqsızlıqlara, zülmlərə qarşı etiraz səsini ucaldanlar arasında həyatına son qoyulanlar, həbsxanalara atılanlar, işgəncələrə məruz qalanlar çox oldu. Amma aksiyaların ilk günlərindən hakimiyyətin qan tökməklə, əzab-əziyyətlər verməklə insanları qorxudub susduracağı barədə düşüncələri boşa çıxdı. Fars-molla rejimi gördü ki, onun cinayətkarlığına, haqsızlığına, qanunsuz əməllərinə qarşı etiraz səsini ucaldanlara siyasi məhbus damğası vuraraq edam etməklə ictimai-siyasi sabitliyi bərqərar etməsi mümkün deyil. Əksinə, bu əməllər ölkədə iğtişaşları daha da gücləndirir. İllərlə molla rejiminin işgəncələrindən cana doyanlar artıq zülmkarların layiqli cavablarını almalarını istəyirlər.

İrana qarşı tətbiq olunan sanksiyaların genişləndirilməsi, eyni zamanda ölkədə iqtisadi islahatların aparılmaması da vəziyyəti gərginləşdirib.

### Azərbaycan "unutqanlara" tarixi xatırlatdı

Ölkəsinin daxilində sabitlik yarada bilməyən İran beynəlxalq hüququ da kobudcasına pozur. Azərbaycana qarşı təxribatlar törətməklə iki ölkə arasındakı qonşuluq münasibətlərinə xələl gətirir, beynəlxalq qanunları pozur.

Azərbaycan hər zaman sülhün, sabitliyin tərəfdarı olduğunu bəyan edir. Bütün ölkələrə və xalqlara hörmətlə yanaşır, haqsızlarla, ədalətsizlərlə belə haqq, ədalət dili ilə danışır. Təəssüf ki, bu münasibətlərdən, Azərbaycanın səbrindən və müdrikliyindən ibrət dərsi almayan İran ölkəmizə qarşı təxribat xarakterli addımlar atmaqla, qeyri-dost mövqeyi nümayiş etdirməklə öz iç üzünü göstərir. Bunun bariz nümunələrindən biri İran İslam Respublikasına məxsus hərbi təyyarənin bu il martın 11-də saat 09:44-dən 10:26-dək fasiləsiz olaraq Azərbaycan-İran dövlət sərhədi boyunca, Zəngilan rayonu istiqamətindən Biləsuvar rayonu istiqamətinə və geriyə doğru uçuş həyata keçirməsi oldu. Xəbər verildiyi kimi, təyyarə iki ölkə arasında dövlət sərhədindən 3-5 km məsafədə, bəzi hallarda isə dövlət sərhədinin tam üstü ilə uçdu. Bu, ölkəmizə qarşı açıq-aydın təxribatdır və rəsmi Tehranın Azərbaycana düşmənçilik münasibətinə son qoymaq niyyətində olmadığını söyləməyə əsas verir.

Bu barədə Azərbaycan Respublikası Xarici İşlər və Müdafiə nazirlikləri birgə bəyanat yaydılar. Bildirildi ki, hərbi təyyarələrin dövlət sərhədinə yaxınlaşması ilə bağlı qonşu dövləti əvvəlcədən xəbərdarlıq etməyə dair beynəlxalq aləmdə qəbul olunmuş təcrübəyə zidd olaraq, İran İslam Respublikasının hərbi təyyarəsinin iki ölkə arasında dövlət sərhədinə bu qədər yaxınlaşması və sərhəd xətti üzərindən uçması mülki aviasiyanın təhlükəsizliyinə təhdid törədir və ölkələr arasında münasibətləri daha da gərginləşdirməyə xidmət edir. Bəyanatda vurğulanır: "İşğaldan azad edilmiş Azərbaycan ərazilərinin yaxınlığında yarım saatdan çox müddət ərzində hərbi təyyarənin uçuşu Azərbaycana qarşı təxribat və qeyri-dost davranışdır. İran tərəfini bu cür təhrikçi addımına görə şiddətlə qınayır, müvafiq izahat verməyə və gələcəkdə belə təxribatçı addımlardan çəkinməyə çağırırıq".

Həmin gün - martın 11-də İran İslam Respublikasının Azərbaycan Respublikasındakı səfiri Seyid Abbas Musəvi Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinə çağırıldı, ona müvafiq etiraz notası təqdim olundu.

Bunu da qeyd edək ki, bu, rəsmi Tehranın ölkəmizə qarşı ilk təxribatı deyil. Ötən il də İran tərəfi Araz çayı boyunca Azərbaycan sərhədləri yaxınlığında genişmiqyaslı hərbi təlimlər keçirmişdi.

Ancaq fars-molla rejimi başqa ölkənin sərhədində güc nümayiş etdirməyin mənasız olduğunu dərk etməlidir. İran xatırlamalıdır ki, Azərbaycan dövləti və xalqı təhdidlərə və təzyiqlərə lazımınca cavab verəcək gücə malikdir. Bunu ölkəmiz 44 günlük Vətən müharibəsinin gedişi və böyük zəfəri ilə göstərdi.

Azərbaycan suveren və demokratik dövlətdir. Bu ölkədə casuslara yer yoxdur. Bunu son günlər Azərbaycan hüquq-mühafizə orqanlarının keçirdikləri əməliyyat nəticəsində İran casus şəbəkələrinin ifşa olunması bir daha göstərdi.

### Nizami Gəncəvi yurduna, vətəninə, xalqına sevgisini ölməz əsərlərində ifadə edib

Azərbaycanın şərəfli tarixi, zəngin mədəniyyəti var. Bu ölkənin, bu xalqın şöhrəti dünyaya yayılmış çox böyük şəxsiyyətləri, dahiləri olub. Nizami Gəncəvi onlardan biridir. Həm də öz kökünə, xalqına, məmləkətinə qırılmaz tellərlə bağlı olan dahi şair, mütəfəkkirdir. Dünyaya göz açdığı, Azərbaycanin qədim şəhəri Gəncənin adı onun həm də təxəllüsü kimi adı ilə daim yanaşı çəkilir. Nizami Gəncəvi Gəncədə dünyaya gəlib və ömrünü ondan uzaqda yaşamaq istəməyib. O, yurduna, vətəninə, xalqına sevgisini ölməz əsərlərində də ifadə edib. Odur ki, İranın paytaxtı Tehran şəhərində "Nizami Gəncəvi həftəsi"nin açılış mərasimində İran Xarici İşlər Nazirliyinin sözçüsü Nasir Kənaninin guya Gəncənin "İran şəhəri", Nizami Gəncəvinin "fars zadəganlarından olan İran şairi" olduğu barədə iddiası da tarixi həqiqətlərin işığında qeyb olur. Şübhəsiz, söylədiklərinin heç bir elmi və məntiqi əsası olmadığını İranda məsul vəzifə tutan Nasir Kənani özü də çox yaxşı bilir. Təəssüf ki, həmin fikri ilk dəfə Nasir Kənani dilə gətirmir. Ondan əvvəl də bəzi şovinist İran alimləri, siyasətçiləri əsassız, qondarma, yalan olduğunu bilə-bilə bu iddiaları dilə gətiriblər.

Azərbaycan bu dəfə də tutarlı faktlarla tarixi "unutqanlara" xatırlatdı. Alimlərimiz, ədəbiyyatşünaslarımız yalan iddiaları gerçək faktlarla, mənbələri göstərməklə puça çıxartdılar.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*